# BİRİNCİ HİSSƏ

***Bakı, Azərbaycan, 2008***

Ümid pəncərənin qarşısında dayanıb alov rənginə bürünmüş günəşin ətrafa saçan şüalarını və onun ağır-ağır gözdən itməsini heyrətlə izləyirdi. Əlini şalvarının cibinə salıb, oradakı qəpikləri oynatdı. Əlli qəpiklik çıxarıb aynaya tərəf uzatdı. Gözünün birini bağlayıb, qəpiyi günün qabağına tutaraq onunla sanki günəşin şüalarını azaltmış oldu. Günəşin alovlu şəfəqlərinin qarşısını örtmək isə qeyri-mümkün idi. Təbiətin belə halına tamaşa etmək fürsəti də nadir hallarda ələ düşərdi. Sürətli və çoxplanlı həyat ritmi onun bu anlara şahidlik etməsinə şərait yaratmırdı, ancaq indi həmin məqamı yaxaladığı üçün məmnunluq hissi yaşayırdı. Dodağında təbəssüm və heyranlıqla al günəşə baxırdı. Günəş tam gözdən itənə qədər pəncərənin qarşısından çəkilmək fikri yox idi. Hər dəfə təsadüfən əlinə düşən bu anı müxtəlif səbəblərdən yarımçıq buraxmaq məcburiyyətində qalmışdı.

– Ümid!

Qonşu otaqdan onu səslədiklərini eşidib dilxor halda gözlərini səmadan çəkdi.

– Mən qayıdana qədər heç yerə getmə. – Günəşə müraciət edib otaqdan çıxdı.

Atası kefi yerində olan oğlunu zəhmli baxışları ilə süzdü. O, qaynar çayını bir dəqiqə ərzində içib bitir-

mişdi. Hərbi formasını dəyişməmişdi. Məlum hadisədən sonra formasını tələsik dəyişib ailə ab-havasında olmaq adətini tərgitmişdi.

– Eşidirəm, ata. – Ümid atasının qarşısında dayandı.

General-mayor oğlunun hərbi biletini jurnal masasına atdı:

– Hərbi həkim özünü qorumadığın halda, sağlamlığının təhlükədə ola biləcəyini dedi, əməliyyata da ancaq o vaxt ehtiyac yarana bilər. Odur ki, hərbi sahəyə yönəlməyində indilik heç bir maneə yoxdur. Sonradan zərurət yaranarsa, əməliyyat olunarsan.

– Mən bir dəfə hərbi qulluqda olmuşam, özümü daha o sahədə görmürəm.

– Nə? – atası təəccüblə qaşlarını çatdı.

– Məncə, hər şeyi anladın. İngiltərədə təqaüdlü təhsil qazanmışam. Bu fürsəti əldən vermək istəmirəm. Ola bilsin, onu qazanmaq üçün nə qədər zaman və güc sərf etdiyimdən xəbərin yoxdur. Bilirəm, sizə deməyi unutmuşam. – Ümid otağa göz gəzdirdi, qardaşını süzüb, ögey anasına da ötəri nəzər saldı. Böyük qardaşı Elxan əsəbdən oturduğu kresloda ayağını yellədirdi.

– Sənin başın yerindədir?

Oğlu heç nə demədən onun gözlərinin içinə baxmağa davam edərkən atası növbəti sualını verdi:

– Müharibə şəraitində yaşayan ölkənin vətəndaşı ölkəsinə qulluq etməkdən – hərbçi olmaqdan boyun

qaçırır? Sən ki illərdir peşəkarcasına hərbi hazırlıq keçmisən. Bəs bunlar nəyin xətrinə idi?

– Müharibə şəraitində olan ölkənin vətəndaşı başqa ölkəyə elm dalınca gedir. Burada pis heç nə yoxdur, əksinə.

– Qarşımda təlxəklik edirsən?

– Xeyr.

Hərbçi ayağa qalxıb qışqırdı:

– Üzündəki rahat ifadəni yığışdır!... Hər an müharibə başlaya bilər. Sənin fiziki, hərbi hazırlığın və bacarıqların hərbi meydan üçün əsl fürsətdir. İndiki halda sənin dövlətə borcun elmdən daha vacibdir.

– Mənim üçün müharibə təhsildən üstün deyil.

– Filosofluğunu başqa vaxta saxla.

– Bir oğlunu hərbçi etmisən. Məni isə öz arzundan uzaq tut. Əlimə növbəti dəfə silah götürmək istəyim yoxdur.

– Torpaq uğrunda lazım gəlsə, silah tutacaq, sənə hücum edəni öldürəcəksən də.

– Təhsilimlə bağlı öz planlarım var.

– Vətəni qorumaq daha vacibdir.

– Müharibə yaxın illərdə gözlənilmir. Mən hələ də münaqişənin sülh yolu ilə həll oluna biləcəyinə inanmaq istəyirəm. Müharibə yalnız böyük qazanclar üçün "müqəddəs" donu geydirilmiş ideya oyunudur. Sən ki bunu bilirsən. Bilirsən ki, hər millətin qatili, yırtıcısı, dahisi və idealı var. Bunu dana bilməzsən axı.

– Nəyə eyham vurursan? – Raul Bəyazov oğluna bir qədər də yaxınlaşdı.

– General-mayor analiz etməyi gözəl bacarır.

– Sonuncu dəfə soruşuram. Nə demək istəyirsən? – atasının qışqırtısı ilə bərabər, Ümid böyük qardaşının tərs nəzərlərini sezdi, heç nə demədən o biri otağa keçmək istədikdə atası bir də soruşdu:

– Son qərarın nə oldu?

Oğlu ayaq saxladı. Üzünü çevirmədən cavab verdi:

– Mən həmişə öz ölkəmi sevmişəm, məni ona qarşı heç bir sayğısızlıqda təqsirləndirə bilməzsən. Ancaq indi yollarım hələlik bu şəhərlə ayrılır. Bir neçə aydan sonra İngiltərəyə yola düşürəm. Tələbə vizam, biletim – hər şey hazırdır. Maraqlandırırsa, Bakı – Kiyev – London marşrutu ilə uçacam.

– Kifayətdir!

Elxan qardaşının qolundan yapışmış atasına sarı qaçdı:

– Ata!

Atası Elxanı itələyib, var gücü ilə dikbaş saydığı oğluna möhkəm bir şillə vurdu. Ümid ona vurulan şilləyə görə pisikmiş qardaşına və həyatında ilk dəfə ona əl qaldıran atasının çiynindəki iri, bir ulduzlu poqona baxdı. Heç bir müqavimət göstərmədən atasının növbəti addımını gözlədi və onun bu itaəti atası Raul Bəyazovu daha da qıcıqlandırdı. O, illərdir gizli saxladığı

həyəcan və itki hissinin nəticəsi olan qəzəblə oğluna daha bir şillə vurmaq istəyərkən, bayaqdan laqeyd halda ortada dolaşan ikinci həyat yoldaşı qolundan tutdu. Qadın zabitəli nəzərlərlə ögey oğlunu süzdü. Bütün hallarda hər zaman haqlı mövqedə olduğuna inandığı kişi onun qəhrəmanı idi.

Ümid heç nə deməyərək köynəyinin yaxalığını düzəldib otaqdan çıxmağa tələsdi. Bəyazovun gözləri qızarmışdı. Döşəməyə baxa-baxa uca səslə dedi:

– Ölkədən getməmişdən qabaq şəxsiyyət vəsiqəndən mənim adımı çıxar. Eşitdin?!

Hansısa anda oğlu başının hərləndiyini hiss etdi, amma özünü tez də topladı. Atası isə hələ də sakitləşməmişdi:

– Eşitdin? Mən zarafat etmirəm!

– Bilirəm. Sən heç vaxt zarafat etməmisən, – aşağı səslə cavab verib otağına keçdi.

Ümid soyuq başla planlarına daxil olan işlərin ardıcıllığını beynində götür-qoy edib, iri səfər çamadanını çarpayısının üstünə atdı.

Azərbaycanı tərk etməmişdən qabaq o, paytaxtın azsaylı hostellərindən birində qalmalı oldu.

O, Heydər Əliyev adına Beynəlxalq Hava Limanında reysinə sərnişin qəbulunun başlanacağı vaxtı gözləyirdi. Geniş aeroportun gözləmə zalında bu gün çatdırıb görə bildiyi işləri fikirləşdi. Özünün yüksək

məvacibli işlə bağlı dəvət aldığı müsahibəyə dostunu göndərməyə çətinliklə nail olmuşdu.

– Sənin əvəzinə? Nə danışırsan? Məni qapıdan içəri keçər-keçməz təpiklə bayıra atarlar. – Dostu məvacibi eşitcək, gözlərini bərəltsə də, qorxusundan etiraz edərək təklifdən imtina etmişdi.

– Bax onlar səni qovmaq istədikləri an dilini işə salarsan. Unutma, ən çətin anlarda köməyinə ciddi məsələləri zarafata çevirmək bacarığın gələcək. Cəsarətli ol. Təhsilimiz eynidir, müsahibəyə əvəzimə getsən də, işləməyə gəldikdə, özün işləyəcəksən. Cinayət məcəlləsinə daxil olmayan işləri həyata keçirməkdə sərbəstsən.

– Görünür, sənin o kitabdan xəbərin yoxdur.

– Afərin, bu yumor hissini müsahibəyə saxla, – o, nəhayət, dostunu iş görüşməsinə getməyə ürəkləndirə bilmişdi.

Dostu ilə ayrıldıqdan sonra Ümid oxuduğu orta məktəbə yollanmışdı. Həyatında mühüm rol oynamış riyaziyyat müəllimini tənəffüsdə yaxalaya bilmişdi. Onunla vidalaşmağa gəldiyini söylədikdə qırx beş yaşını haqlamış müəllimi çox məyus olmuşdu. Öz masasının arxasına keçib dərindən ah çəkmişdi. Keçmiş şagirdinin ölkədən getməsini elə də arzulamırdı:

– Əslində, sən yalnız elmlə məşğul olmalıydın. Əminəm ki, böyük riyaziyyatçı və ya fizik ola bilərdin. Hələ idman vaxtını alır və bütün imkanlarını açmağa

mane olurdu. Karateyə sərf etdiyin zamanı da əlavə etsək... Yadındadır, gecələr zəng edib hansısa çətin tənliyi həll etdiyini necə sevinc hissi ilə xəbər verirdin? Səfərin səni elmdən uzaqlaşdıracaq. Həmişə "rəqəmlərlə möcüzələr yaratmaq olar" deyərdin.

– Həyatda təzadlar çoxdur. Belə baxanda, mən tarixi və fəlsəfəni riyaziyyatdan çox sevmişəm. Hərçənd, Böyük Britaniyaya elə təhsil ardınca gedirəm. – Ümid vida əlaməti olaraq əlini uzatmışdı. – Xudahafiz, müəllim.

Müəllimi təəssüf hissi ilə keçmiş şagirdinin əlini sıxmışdı.

– Əminəm ki, ölkə potensial alimini itirdi.

– Atam isə Azərbaycanın bir hərbçisini itirdiyini düşünür. Hansı daha vacibdir, alim, yoxsa hərbçi?

Müəllimi sualdan yayınmışdı:

– Müəllim üçün yaxşı-pis şagird olmamalıdır, amma sən mənim ən yaxşı şagirdim olmusan. Özündən muğayat ol.

– Mütləq. Olar sizi qucaqlayım? Əvvəllər bu mənim üçün qeyri-real bir şey idi.

– Əlbəttə!

Müəllimi kövrəldiyini gizlədərək onu qucaqlamışdı.

– Hər şey üçün çox sağ olun. Sizi yuxudan oyatdığım gecələr üçün ayrıca üzr istəyirəm. Sayı çox olub.

– Sənin iradənlə həmişə fəxr etmişəm. Yolun açıq olsun.